Aqrar Xidmətlər
Agentliyi

# Komstok Yastıcası

## (Pseudococcus comstocki Kuwana)



088-588
axa.gov.az

## Zərərli orqanizm haqqında

Komstok yastıcasının dişi fərdlərinin bədəni 3-4 mm, yumurta qoyduqları dövrdə isə 5-6 mm olmaqla, üzəri ağ mumabənzər kütlə ilə örtülmüş olur. Bədənin kənarlarında 17 cüt mumvari, arxa tərəfdə isə bədənin yarısından uzun bir cüt sapvari çıxıntı vardır. Ayaqları yaxşı inkişaf etmişdir. Bığcıqları 8 buğumludur. Erkək fərdləri 1,0-1,5 mm böyüklükdədir, parlaq qanadlıdır, bədəni qırmızımtıl-qəhvəyi, gözləri qaradır. Bığcıqları 10 buğumludur.Yumurtaları 0,3 mm ölçüdə, ovalşəkilli olub, sarımtıl narıncı rəngdədir. Sürfələrin bədəni yetkin dişilərə oxşayır. Üç yaş mərhələsi keçirir, birinci yaşda 0,45 mm, ikinci yaşda 1,2 mm, üçüncü yaşda isə 1,7 mm böyüklükdə olurlar. İqlim şəraiti ilə əlaqədar olaraq, komstok yastıcası ildə 3-4 nəsil verir.

## Mübarizə tədbirləri

Zərərvericinin yayılmasının qarşısını almaq məqsədilə daxili karantin tədbirlərinə ciddi əməl olunmalıdır;
Aqrotexniki tədbir olaraq vegetasiya dövründə ağacların ştambları ətrafında çıxan bic zoğlar və alaq otları məhv edilməlidir;
Payızın sonunda gövdə və budaqlarda olan quru qabıqlar və tökülən yarpaqlar toplanıb yandırılmalıdır;
Bioloji mübarizə tədbiri olaraq, psevdafikus tüfeylisi yastıca yayılmış sahələrə buraxılmalıdır;
Erkən yazda tumurcuqlar açanadək mineral yağ emulsiyaları ilə ağaclar çilənməklə tam isladılmalıdır;



## Zədəsi